# XXI əsr bacarıqları

XXI əsrin əsas bacarıqları

## Tədris və innovasiya bacarıqları

### Yaradıcılıq və innovativlik

- Fəaliyyətdə orijinallıq və innovativlik qabiliyyəti nümayiş etdirmək
- Yeni ideyaların işlənib-hazırlanması, tətbiq edilməsi və başqalarına çatdırılması
- Yeni və müxtəlif nöqteyi-nəzərlərə açıq və həssas olmaq
- İnnovasiyalar tətbiq olunan sahələrdə sanballı və faydalı töhfələr vermək üçün yaradıcı ideyalar üzərində işləmək

### Tənqidi təfəkkür və problem həll etmə bacarığı

- Düzgün mühakimə yürütmək
- Mürəkkəb seçim və qərarlar qəbul etmək
- Sistemlər arasındakı qarşılıqlı əlaqələrin başa düşülməsi
- Fərqli nöqteyi-nəzərlərə aydınlıq gətirən və məsələlərin daha yaxşı həllinə aparıb-çıxaran mühüm sualları müəyyən etmək, soruşmaq
- Problemləri həll etmək və suallara cavab vermək üçün məlumatların hazırlanması, təhlili və sintezləşdirilməsi

### Kommunikativ və əməkdaşlıq bacarıqları

- Fikir və ideyaların danışıq və yazı yolu ilə aydın və effektiv ifadə edilməsi
- Müxtəlif qruplarla effektiv iş bacarığının nümayiş etdirilməsi
- Ümumi məqsədə nail olmaq üçün zəruri kompromislərin əldə edilməsi və bu istiqamətdə çeviklik və istəyin nümayiş etdirilməsi
- Birgə işə görə məsuliyyət daşımaq
- Müxtəlif ünsiyyət növlərinin (yazılı, şıfahi və müxtəlif forma və şəraitlərdə multimedia vasitələrinin köməkliyi ilə) yaradılması və onlardan istifadə, effektiv ünsiyyətin rolunun dərk olunması

## İnformasiya ilə işləmək bacarıqları, mediya və texnologiya vərdişləri

### İnformasiya savadlılığı

- Sözügedən problem və ya sualın həlli məqsədilə, informasiyaya səmərəli və effektiv çıxış, onun tənqidi və savadlı qiymətləndirilməsi, informasiyadan düzgün və yaradıcı istifadə edilməsi
- İnformasiyaya çıxış və ondan istifadə ilə bağlı etik/hüquqi məsələlərə dair təməl anlayışların başa düşülməsi.

### Media savadlılığı

- Media xəbərlərinin qurulması prinsipinin hansı məqsədlər və hansı alətlərdən və ənənələrdən istifadə edilməsi anlayışı. Onların xüsusiyyətləri.
- Media məlumatlarının insanlar tərəfindən necə fərqli şərh olunmasının, dəyərlərin və nəzər nöqtələrinin necə daxil və xaric edildiyinin və mətbuatın inanc və davranışlara necə təsir edə biləcəyinin araşdırılması
- İnformasiyaya çıxış və ondan istifadə ilə bağlı etik/hüquqi məsələlərə dair təməl anlayışların başa düşülməsi.

Müəllif hüququ © 2008 İntel Korporasiyası. Bütün hüquqları qorunur

### İKT savadlılığı (İnformasiya Kommunikasiya və Texnologiyalar sahəsində savadlılıq)

- Bilik iqtisadiyyatında fəaliyyət göstərmək məqsədilə informasiyaya çıxış, ona nəzarət, onun tətbiqi, dəyərləndirilməsi və yeni informasiya yaratmaq üçün rəqəmsal texnologiyanın, kommunikasiya alətlərinin və/yaxud şəbəkələrin müvafiq şəkildə düzgün istifadəsi
- Ünsiyyət üçün, tədqiqat, təşkil etmə, informasiyaların qiymətləndirməsi aləti kimi, informasiyaya çıxış və ondan istifadə ilə bağlı etik/hüquqi məsələlərə dair ilkin anlayışlara malik olmaq üçün kompyuter texnologiyalarından istifadə

## Həyat və karyera bacarıqları

### Çeviklik və uyğunlaşma bacarığı

- Müxtəlif vəzifə və cavabdehliklərə uyğunlaşma (adaptasiya)
- Qeyri-müəyyənlik və dəyişən prioritetlər şəraitində effektiv çalışma

### Təşəbbüs və özünüistiqamətləndirmə

- Şəxsi təhsilin anlanılması və öyrənmə ehtiyaclarının dərk edilməsi
- Öz biliklərini və təcrübə qazanma imkanlarını araşdırmaq və genişləndirmək üçün əsas peşəkar bilik və bacarıqlar və/yaxud tədris kursundan kənara çıxılması
- Bilik səviyyəsinin peşəkar səviyyəyə yüksəldilməsi təşəbbüsü ilə çıxış
- Tədris tapşırığının müəyyən olunması, əsas tapşırıqların qeyd olunması və onların kənardan nəzarət olmadan icrası
- Vaxtdan səmərəli istifadə edilməsi və iş yükünün paylanılması
- Ömür boyu oxumaq həvəsi və bacarığı

### İctimai və mədəniyyətlərarası bacarıqlar

- Digərləri ilə müvafiq şəkildə və məhsuldar çalışmaq
- Ehtiyac olanda qrupların kollektiv dərrakələrindən faydalı istifadə
- İnnovasiya və işin keyfiyyətini artırmaq üçün mədəniyyətlərarası fərqləri əlaqələndirmək və fərqli perspektivlərdən istifadə

### Məhsuldarlıq və hesabatlılıq

- İşin vaxtı-vaxtında keyfiyyətlə təhvil verilməsi üçün qarşıya yüksək standart və məqsədlərin qoyulması və bunların ödənilməsi
- Çalışqanlıq və müsbət iş etikası nümayiş etdirilməsi (yəni, dəqiqlik və etibarlılıq)

### Liderlik və məsuliyyətlilik

- Digər şəxslərə təsir göstərmək və onları məqsədə doğru yönəltmək üçün insanlararası əlaqələr və problem həll etmə bacarıqlarından istifadə
- Ümumi məqsədə nail olmaq üçün başqalarının güclü tərəflərindən səmərəli istifadə
- Dürüstlük və etik davranışın nümayiş etdirilməsi
- Geniş kütlənin maraqlarını nəzərə almaqla fəaliyyət

[1]Mənbə: Partnership for 21st Century Skills (www.21stcenturyskills.org). İcazə əsasında istifadə olunub.

Müəllif hüququ © 2008 İntel Korporasiyası. Bütün hüquqları qorunur